Kapital qaçışı: tədiyə balansı qaçan kapitalı uçota alırmı?

written by BRI Economic Team BAİ İqtisadi Qrupu

Kapital hərəkəti: leqal və qeyri-leqal kanallar

Müxtəlif ölkələrin təcrübəsindən çıxış etsək, kapitalın hərəkəti 2 formada baş verir: leqal və qeyri-leqal kanallar vasitəsilə. Adətən investisiyanın müəyyən doyma mərhələsini yaşayan, nəhəng sərbəst vəsaitlərə malik inkişaf etmiş iqtisadiyyatlarda kapital kənara daha çox leqal kanallarla axır. Kapital çıxan ölkələrin daxili tələbatı həm daxili yığımlar, həm də xarici kapital hesabına tam ödənir. Ona görə də izafi vəsaitlər qazanc götürmək üçün əlverişli bazarlar axtarır. Eyni zamanda, yüksək əlavə dəyər yaradan iqtisadiyyat milli gəlirin bölgüsü prosesinin yekun mərhələsində ev təsərrüfatları və biznes üçün əmək haqqı, mülkiyyətdən gəlirlər və bölüşdürülmüş mənfəət formasında nəhəng vəsaitlər (qənaətlər) formalaşdırır. Həmin sərbəst vəsaitlər isə ya portfel investisiyalar (əsasən müxtəlif qiymətli kağızlar), ya da birbaşa investisiya formasında ölkədən çıxır. Bu ölkələr həm də o ölkələrdir ki, orda kapital yığımı daha çox rəsmi qaydada baş verir, korrupsiyanın və "kölgə iqtisadiyyatı"nın miqyası çox kiçikdir.

Üçüncü dünya və keçid ölkələrində isə milli iqtisadiyyatın sərmayələrə böyük ehtiyacı olmasına, milli əmanət yığımının səviyyəsinin çox aşağı olmasına rəğmən, mülkiyyət toxunulmazlığına, iqtisadi-siyasi sabitliyə təminatlar olmaması səbəbindən kapital ölkədə qalmır, bir çox hallarda bu proses qeyri-qanuni mexanizmlər və kanallar vasitəsilə baş tutduğu üçün kapital ölkədən qaçır – daha təminatlı hüquqi məkana və coğrafiyaya. Bu ölkələrdə "qara iqtisadiyyat"ın miqyası çox böyük olduğundan, kapital yığımı da əsasən

qanunsuz yollarla (məsələn, biznesin vergidən yayınma, vəzifəli şəxslərin korrupsiya yolu ilə qazancları) baş verir. Nəticədə bu cür kapitalın mənbəyini göstərmədən bank sektoru vasitəsilə leqallaşdırılması mümkün olmur, xüsusilə çirkli pulların yuyulması ilə bağlı beynəlxalq mexanizmlərin sərtləşməsi bank sektorunu belə əməliyyatlardan çəkindirir, kapital sahibəri öz sərvətlərini leqal olmayan kanallar və mexanizmlər əsasında öz ölkələrindən çıxarmağa vadar olurlar.

İnkişaf etməkdə olan ölkələrin xroniki kapital defisitinə məruz qalmasının, xarici kapitaldan, beynəlxalq maliyyə qurumlarından asılılığının daimi bir problem olmasının əsas səbəblərindən biri də məhz kapitalın qanunsuz kanallarla kənara axmasıdır. Lakin hazırda bu problem milli xarakter daşımır, çirkli pulların yuyulması baxımından bu cür kapital axınları qlobal iqtisadiyyat üçün daim təhlükə mənbəyinə çevrilir. Bütövlükdə bank sektorundan kənar kapital çıxışının real miqyasını müəyyənləşdirmək adətən çox çətin olur. Nağd formada ölkədən kapital çıxışı bir çox hallarda sərhəd-gömrük məntəqələrində qeydiyyata düşmədən qeyri-leqal kanallarla həyata keçirilir. Sərhəddən uzaqlaşdıqdan sonra həmin vəsaitlərin kapitalın gəlişinə məhdudiyyət qoymayan 3-cü ölkəyə yetişməsi kifayət edir ki, bank sektoru vasitəsilə leqallaşaraq sərvətin mənşəyini sorğulamayan ofşor məkanlara qədər rahatlıqla gedib çata bilsin. Bir sözlə, nağd formada qeyri-leqal kanallarla ölkədən qaçan kapitalın miqyasını müəyyənləşdirmək istənilən milli statistika üçün həlli çətin problemdir.

Nəhayət, demokratik siyasi və dayanıqlı bazar iqtisadiyyatı sisteminin mövcud olduğu, dürüst və şəffaf yollarla kapital qazanmaq üçün imkanların tanındığı inkişaf etmiş ölkələr üçün kapital axını ciddi nəticələr doğurmur. Məsələn, Yaponiyada son illər ölkədən çıxan kapitalın həcmi ölkəyə daxil olan kapitaldan orta hesabla 10-12 dəfə çox olub. Amma bu ölkədəki ən müxtəlif peşəkar mərkəzlər kapital axınını iqtisadiyat üçün fəlakətli bir mövzu kimi gündəliyə çıxarmayıb. Səbəb yuxarıda qeyd olunan məqamdır: milli əmanət yığımının (həm ev

təsərrüfatlarının, həm biznesin, həm də hökumətin yığımlarının məcmusu) yüksək səviyyəsi və kapital idxalına məhdudiyyətlərin olmaması milli iqtisadiyyatın sərmayə ehtiyaclarını qarşılayır.

Bütün hallarda kapital axınlarının leqal kanallarla baş verməsi son dərəcə önəmlidir. Şəffaf fəaliyyət göstərən bank sektoru və sərhəd-gömrük sistemi, onların məlumatları əsasında çalışan keyfiyyətli tədiyə balansı statistikası olduğu şəraitdə kapitalın hərəkətini izləmək çətin olmur. Amma belə sistem olmadıqda buna tam əks vəziyyət yaranır. Qeyri-leqal kapital axınlarının geniş miqyas aldığı şəraitdə tədiyə balansı statistikası ən azından təhlil üçün "ipucları" verirmi? Aşağıda bu məsələnin izahına cəhd göstərilib.

Tədiyə balansı statistikası: "kapital qaçışı"nı necə müəyyənləşdirməli?

Siyasi institutlar problemin həllinə maraqlı olarsa, tədiyə balansı statistikası kapital qaçışının miqyası haqda müəyyən səviyyədə informasiya verə bilər. Doğrudur, bu, dolayı yol sayılır və kapital qaçışının yalnız müəyyən hissəsi barədə təsəvvür yaradır. Beynəlxalq təcrübədə tədiyə balansı statistikası vasitəsilə "kapital qaçışı"nın mümkün miqyası araşdırılanda 3 anlayış altında əks etdirilən rəqəmlərə baxılır:

- **Şübhəli əməliyyatlar (*doubtful operations*);**
- **Xalis xəta və nöqsanlar (net errors and omissions);**
- **Ticarət kreditləri və avanslar (trade credits and advances).**

Azərbaycanın tədiyə balansı ilə bağlı statistik hesabatlarda, həmçinin bu hesabatların hazırlanması üçün rəsmi təlimat və normativ sənədlərdə bu anlayışların bəziləri ya ümumiyyətlə yoxdur, ya da fərqli ad altında əks olunub. Məsələn, "şübhəli əməliyyatlar" anlayışı ümumiyyətlə mövcud deyil. Nümunə üçün qeyd etməyə dəyər ki, Rusiya Mərkəzi Bankının tədiyə balansı statistikasının tərtibi ilə bağlı hazırladığı təlimatda


“şübhəli əməliyyatlar” anlayışı ölkədən kapital qaçışını əks etdirən əsas əməliyyatlar kimi vurğulanır və ona bu şəkildə izah verilir: “Şübhəli əməliyyatlara ixrac edilmiş məhsul və xidmətlərə görə ixrac gəlirlərinin müqavilədə nəzərdə tutulmuş müddətdə müvafiq bank hesabına köçürülməməsi, idxal əməliyyatları üzrə ödəniş aparılmış malların (xidmətlərin) müqavilədə nəzərdə tutulmuş müddətdə idxalatçıya təqdim edilməməsi, habelə kreditlərin verilməsi, qiymətli kağızların ticarəti, xaricə pul köçürmələri ilə bağlı saxta əməliyyatlar aiddir”. Məsələn, Rusiya Mərkəzi Bankının açıqladığı məlumata görə, 2015-2016-cı illərdə “şübhəli əməliyyatlar” kimi təsnif edilən əməliyyatlar hesabına ölkədən çıxan kapitalın həcmi illik 1.5-2 mlrd. dollar ətrafında olub. Halbuki 2012-2014-cü illərdə həmin göstəricinin səviyyəsi 8.6-38 mlrd. dollar intervalında dəyişmişdi. Lakin sərt tənzimləmə və kapital axınına nəzarətin güclənməsi şübhəli əməliyyatların həcminin 10 dəfəyədək azaldılmasına gətirib çıxardı.

“Xalis xəta və nöqsan” anlayışı Beynəlxalq Valyuta Fondunun 2009-cu ildə yenilədiyi “Tədiyə balansı və beynəlxalq valyuta mövqeyi”nə dair Təlimatında da əks olunub. Azərbaycan Mərkəzi Bankı bu anlayışın əvəzində “balanslaşdırıcı maddə” ifadəsindən istifadə edir. “Xalis xəta və nöqsan” anlayışı isə tədiyə balansında debet və kredit maddələri üzrə yaranan fərqi qapadır. Nəzəri olaraq tədiyə balansının iki tərəfi (ölkəyə daxilolmaları və çıxışları əks etdirən maliyyə axınları) bir-birinə bərabər olmalıdır. Lakin təcrübədə bu, müxtəlif səbəblərdən baş vermir. Malların (xidmətlərin) təqdim edilmə və çatma vaxtı arasında yaranan zaman fərqi, mal (xidmət) göndərən və malı (xidməti) qəbul edən ölkələrin qarşılıqlı hesablaşması prosesində milli valyutadan dönərli valyutaya konvertasiyanın yaratdığı məzənnə fərqləri, mənşəyi bilinməyən qeyri-leqal kanallarla vəsaitlərin daxil olması və çıxışı səbəbindən tədiyə balansının yekununda bərabərlik alınmır. Nəticədə bu balans məhz BVF-nin metodologiyasında təklif edilən “xalis xəta və nöqsan” maddəsi vasitəsilə yaradılır. Lakin Mərkəzi Bank tədiyə balansı ilə bağlı hesabatlarında

müntəzəm olaraq bu fərqin mümkün izahlarını verməyə, həmin məbləğin hansı hissəsinin məzənnə və ya zaman fərqi, hansı hissəsinin isə mənşəyi bilinməyən qeyri-leqal kapital axını üzündən yarandığına dair rəqəmlər təqdim etməyə çalışmalıdır.

Azərbaycanın tədiyə balansının son 10 il üzrə məlumatlarının analizi göstərir ki, 2007-2015-ci illərdə müxtəlif səbəblərdən ölkədən "balanslaşdırıcı maddə" qeydi altında çıxan kapitalın həcmi kifayət qədər böyük olub.

"Balanslaşdırıcı maddə" üzrə ölkədən çıxan və ölkəyə daxil olan kapital, mln. dollarla



Diaqramdan göründüyü kimi, xüsusilə də 2011-2014-cü illərdə "balanslaşdırıcı maddə"nin mənfi göstəricisi kəskin artıb və 1.9-2.8 mlrd. dollar intervalında dəyişib. Lakin milli valyutanın kəskin dəyər itirdiyi 2015-ci ildən sonra situasiya tam əksinə dəyişib, "balanslaşdırıcı maddə" qeydi altında ölkəyə kapital axını baş verib və daxilolmanın həcmi 2016-cı ildə 3.6 mlrd. dolları ötüb, 2017-ci ildə isə 390 mln. dollara yaxın olub. Heç şübhəsiz, kəskin devalvasiya nəticəsində kapital çıxışına qadağaların maksimum sərtləşdirilməsi bir tərəfdən "balanslaşdırıcı maddə" üzrə ölkədən vəsait çıxışının qarşısını alıb, digər tərəfdən valyutaya tələbatın kəskin artımı oliqarxiya kapitalına bağlı xaricdəki bəzi mənbələrdən kapitalın müxtəlif kanallarla ölkəyə gəlişini təmin edib. Nəticədə isə tədiyə statistikasındakı bu mənzərə yaranıb.

"Balanslaşdırıcı maddə" çərçivəsində ölkədən çıxan və ölkəyə daxil olan vəsaitlərin hamısı qeyri-leqal əməliyyatların

nəticəsidirmi? Əlbəttə yox. Tədiyə balansının metodologiyasına əsasən, mal-xidmət idxal-ixracı üzrə ödənişlərin həyata keçirilməsində və qəbulunda zaman fərqi, xarici iqtisadi əlaqələr prosesində məzənnə fərqi də "balanslaşdırıcı maddə"nin meydana gəlməsinə səbəb olur. Hərçənd beynəlxalq təcrübədə bu fərqlər hesabına yaranan kənarlaşmalar ümumi dövriyyənin 10-15%-dən çox olmur. Lakin ölkəyə nağd formada, bəyannaməsiz vəsaitlər daxil olur və oxşar qaydada çıxırsa, bu da "balanslaşdırıcı maddə"nin meydana gəlməsinə səbəb olur. Yaxud turizm müəssisələri, ictimai-iaşə təsisatlarının qeyri-leqal dövriyyəsi böyükdürsə və onlar xarici turistlərin bütün ödənişlərini rəsmiləşdirmir, amma aldıqları nağd valyutanı bank sektoru vasitəsilə milli valyutaya çevirirlərsə, ortaya çıxan izafi valyuta kütləsi "balanslaşdırıcı maddə"nin həcmində özünü göstərir. Eyni vəziyyət valyutadəyişmə infrastrukturuna da aiddir: banklar valyuta alışının hamısını rəsmiləşdirmirsə, xarici valyutanın istifadəsi zamanı real dövriyyə mütləq ortaya çıxır və Mərkəzi Bank bu dövriyyəni "balanslaşdırıcı maddə"də əks etdirməyə məcbur olur. Nəhayət, bir çox hallarda əcnəbilərin əmlak bazarına və ayrı-ayrı sahələrə nağd sərmayə qoyuluşları da "uçotsuz", "mənbəsiz" vəsaitlər kimi "balanslaşdırıcı maddə" vasitəsilə uçota alınır.

Eyni zamanda, şübhəli əməliyyatlar üçün vəsaitlərin həcmi də böyüdükcə, "balanslaşdırıcı maddə" şişir. Məsələn, qanunvericiliyə əsasən 270 gün ərzində haqqı ödənmiş mal və xidmət ölkəyə daxil olmalı, yaxud elə həmin müddət ərzində konsiqnasiya yolu ilə ixrac edilmiş yerli məhsulların haqqı ölkəyə gəlməlidir. Əgər bu baş vermirsə, beynəlxalq təcrübədə ya mənfi, ya da müsbət işarə ilə "şübhəli" hesab olunan məbləğ "balanslaşdırıcı maddə" adı altında təsnifləndirilir. Azərbaycan Mərkəzi Bankının hesabatlılıq təcrübəsində belə yanaşma olmadığı üçün "balanslaşdırıcı maddə"nin yaranma səbəbləri, ayrı-ayrı əməliyyatların daxilolma və ölkədən kapital çıxışında payı barədə nəsə demək çətindir.

Yuxarıda qeyd edildiyi kimi, beynəlxalq təcrübədə ölkədən

kapital qaçışını təmin etməyin yollarından biri də tədiyə balansının "ticarət kreditləri və avansları" maddəsi altında köçürmə və ödənişlərin təşkilidir. Valyuta axınlarına nəzarətin düzgün təşkil edilmədiyi şəraitdə ticarət kreditləri və avansları ölkədən kapital qaçışı üçün əlverişli mexanizmə çevrilə bilir. Tədiyyə balansı statistikasının metodologiyası baxımından vəziyyət belədir: tədiyyə balansının "ticarət kreditləri və avansları" maddəsi üzrə aktivlər hissəsində göstərilən məbləğ Azərbaycana ödənişləri, öhdəliklər hissəsində göstərilən məbləğ Azərbaycandan ödənişləri əks etdirir. Birinci halda Azərbaycandan olan ixracatçıların xarici alıcı ilə razılaşmasına əsasən kredit və konsiqnasiya yolu ilə satdığı, ikinci halda isə Azərbaycandan olan idxalatçının xarici satıcı ilə razılaşmasına əsasən kredit və konsiqnasiya yolu ilə aldığı mal üçün ödənişlərin əks etdirilməsindən söhbət gedir. Konsiqnasiya – müqavilədə əks olunan müddət ərzində əmtəəni satıb qurtardıqdan sonra dəyərinin malgöndərənə köçürülməsi üsuludur.

Tədiyə balansı statistikası həm Beynəlxalq Valyuta Fondunun tədiyə balansının və beynəlxalq investisiya mövqeyinin işlənməsi ilə bağlı 2008-ci ildə yenilənmiş metodologiyası, həm də Mərkəzi Bankın 18 dekabr 2013-cü il qərarı ilə təsdiqlənmiş "Azərbaycan Respublikası rezidentlərinin qeyri-rezidentlərlə maliyyə əməliyyatlarına və neytral əməliyyatlara dair hesabatın tərtibi və təqdim edilməsi haqqında Təlimat" əsasında tərtib olunur. Təlimatda ticarət kreditləri və avansları Azərbaycandan olan dövlət və qeyri-dövlət təşkilatlarının əcnəbilərə verdiyi və onlardan aldığı qısa və uzunmüddətli ticarət (kommersiya) kreditləri kimi təsnif edilir.

Ölkə prezidentinin 24 iyun 1997-ci il fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"nın, həmçinin Mərkəzi Bankın 28 noyabr 2016-cı il qərarı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının rezident və qeyri-rezidentlərinin xarici valyuta əməliyyatlarının aparılması Qaydaları"nın tələblərinə əsasən,


hüquqi və fiziki şəxslər konsiqnasiya yolu ilə ixrac etdikləri malların (işlərin, xidmətlərin) müqabilində vəsaitlərin onların bəyan olunduğu gündən sonrakı 180 (yüz səksən) gün ərzində Azərbaycan Respublikasındakı müvəkkil bankda olan hesablarına köçürülməsini təmin etməlidirlər.

Eyni zamanda, ödənişin aparıldığı gündən sonrakı 270 gün müddətində malların ölkəyə idxalı təmin edilməli, idxalı təsdiqləyən gömrük bəyannaməsi və ya xidmətlərin idxalını təsdiq edən sənəd banka təqdim olunmalıdır.

İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsinə uyğun olaraq avans yolu ilə ödənmiş valyuta vəsaitinin müqabilində müəyyən olunmuş müddətlərdə müvafiq mal və xidmətlər idxal edilmədikdə köçürülmüş valyuta vəsaitinin xaricdən geri qaytarılmamasına görə vəzifəli şəxslər həmin məbləğin 10-20%-i, hüquqi şəxslər isə 20-30%-i məbləğində cərimə olunurlar.

2015-ci ildən sonra idxal-ixracda qarşılıqlı valyuta əməliyyatlarına nəzarətin gücləndirilməsi, ticarət kreditəri üzrə ödənişlərlə bağlı qanunvericiliyin sərtləşdirilməsi tədiyə balansı statistikasında da özünü göstərir.

Ticarət kreditləri və avansları üzrə dövriyyə, mln. dollarla



Mərkəzi Bankın tədiyə balansı statistikasına əsasən

hazırlanmış diaqramdan göründüyü kimi, 2008-ci ildən ticarət kreditləri və avansları üzrə saldo kəskin şəkildə artmağa başlayıb və bu, özünü əsasən aktivlər hissəsində göstərib. Aktvlər üzrə göstərici 2008-ci ildəki 42.3 mln. dollardan 2009-cu ildə 1.077 mlrd. dollara, 2011-ci ildə 2.478 mlrd. dollara, 2013-cü ildə artıq 4.832 mlrd. dollara çatıb. Yəni təxminən 7-8 il içərisində bu əməliyyatların həcmi 100 dəfədən çox artıb. İxracda ticarət kreditlərinin artımı nə üçün gizli kapital qaçışının bir üsulu hesab edilir? Bu əməliyyatın mexanizminə diqqət etdikdə cavab aydın olur: şirkət məhsulunun haqqını əvvəlcədən almır, satıldıqdan sonra məhsulun dəyərini almaq şərtilə xaricə göndərir. Əgər maliyyə bazarlarına və bank sektoruna ciddi nəzarət yoxdursa, yaxud bəzi şirkətlərin bu nəzarətdən yayınmaq üçün imtiyazı varsa, ixracatçı şirkət sonradan ixrac gəlirinin tamamını və ya onun müəyyən bir hissəsini ölkəyə gərirməmək, yaxud ölkədən kənarda konkret məqsədləri üçün istifadə etdikdən sonra gətirmək imkanı qazanmış olur. Daxildə valyuta nəzarətinin zəif olması hətta konsiqnasiya yolu ilə satılmış məhsula görə ödənəcək vəsaitlərin ölkəyə gətirilmədən ofşor hesablara ödənməsinə qədər imkan yaradır.

Diaqramdan göründüyü kimi, 2017-ci ildə aktivlər üzrə ticarət kredirləri və avanslarının məbləği 2.2 dəfə azalaraq 4.716 mlrd. dollardan 2.172 mlrd. dollar səviyyəsinə düşüb. Mərkəzi Bankın yerli mediaya açıqlamasında deyilir ki, bu azalmanın yaranmasında konsiqnasiya əməliyyatları və valyuta ilə hesablaşmalar üzərində nəzarətin sərtləşdirilməsi məqsədilə qanunvericiliyə edilmiş dəyişikliklər rol oynayıb. Doğrudan da, qeyri-neft əmtəə və xidmət ixracı 10%-dək artdığı bir şəraitdə ixraca bağlı konsiqnasiya əməliyyatlarının həcmi birdən-birə 2 dəfədən çox azalırsa, deməli, şübhələnmək üçün xeyli əsas var və burada tərəfsiz dəyərləndirməyə ehtiyac yaranır.

Maraqlıdır ki, idxal üzrə ticarət kreditləri və avanslarının həcmi çox kiçikdir. Bunun 2 səbəbi ola bilər:

- **xarici ixracatçılar bizim ölkənin idxalçı şirkətlərinə etimad göstərib konsiqnasiya yolu ilə əmtəə-xidmət satmır, əsasən əvvəlcədən ödənişlər tələb edir;**
- **idxalatçı şirkətlərə qarşı partnyorları tərəfindən daha sərt tələblər qoyulur və onlar ödənişlərini daha qısa müddətdə qəbul edə bilirlər.**

İdxala görə ödəniş nə qədər qısa müddətdə həyata keçirilirsə, tədiyə balansı üzrə yekun (rüblük və ya illik) statistikada da ticarət kreditləri və avanslar üzrə öhdəliklərin az məbləği də bir o qədər kiçik olur. Təcrübədə isə idxalda da ticarət kreditlərindən istifadə zamanı kapital qaçışı təmin edilə bilir: idxal üçün müəyyən məbləğdə ödəniş olunur, lakin əmtəə və xidmət idxalı yalnız sənəd üzərində baş verdiyindən sonrakı mərhələdə xaricə köçürülmüş vəsaitin başqa məqsədlər üçün istifadəsi riski yaranır.

Rəsmi statistik bazanın araşdırılması göstərir ki, ticarət kreditləri və avansları üzrə əməliyyatlar yalnız qeyri-neft sektoru üzrə idxal-ixrac əməliyyatlarını əhatə edir. Bu baxımdan qeyri-neft əmtəə-xidmət ixracının və idxalının həcmi ilə aktivlər üzrə ticarət kreditlərinin və avanslarının həcmini müqayisə etdikdə, aktivlər üzrə göstəricinin çox yüksək, öhdəliklər üzrə göstəricinin çox kiçik olduğu aşkar görünür.

Aktivlər və öhdəliklər üzrə ticarət kreditlərinin və avansların məbləği, mln. dollarla



Diaqramdan da göründüyü kimi, ixracda ticarət kreditlərindən istifadə səviyyəsi çox yüksəkdir. Hətta 2011-2012-ci illərdə aktivlər üzrə ticarət kredit və avanslarının qeyri-neft əmtəə-xidmət ixracına nisbəti 75.3-81.8% intervalında olub. 2016-cı ildə pik göstərici qeydə alınıb – 92.2%. Lakin 2017-ci ildə göstəricinin səviyyəsi kəskin şəkildə azalıb və 36.7%-ə enib.

Beləliklə, tədiyə balansı üzrə 10 illik dövrü əhatə edən statistikanın analizi göstərir ki, həm böyük həcmdə "balanslaşdırıcı" maddə, həm də ixrac əməliyyatları üzrə ticarət kreditləri maddəsi ölkədən hətta rəsmi kanallarla kapital qaçışının baş verməsi ehtimalını ortaya qoymağa əsas yaradır.

Amma heç şübhəsiz, şəffaf maliyyə münasibətlərinin formalaşmadığı Azərbaycan kimi ölkələrdə kapital qaçışının daha böyük hissəsi qeyri-leqal (bank sistemindən kənar) kanallarla və nağd formada baş verir…

Qısa icmal: "kapital qaçışı"nın tipik səbəbləri

Kapital özünü təhlükəsiz hiss etmədiyi məkanda uzun müddət qalmır. Daima axtarışda olur, toxunulmazlığına ən yüksək səviyyədə zəmanət verilən coğrafiyada qərar tutur. Bu zəmanətlərə nələri aid etmək olar?

Əvvəla, ölkədə mülkiyyət toxunulmazlığına təminat verən mükəmməl hüquqi baza olmalıdır. Qanunlar siyasi əqidəsinə, cinsinə və etnik mənşəyinə, rezidentlik statusuna baxmayaraq insanın mülkiyyətinin əlindən alınmasını mümkünsüz bir hala gətirməlidir.

İkincisi, ölkədə mülkiyyət toxunulmazlığına təminat verən tam müstəqil, ölkənin birinci şəxsinin belə təsir göstərə bilməyəcəyi məhkəmə sistemi olmalıdır.

Üçüncüsü, mülkiyyət toxunulmazlığına ən xəfif risk yarandığı halda bu problemi ictimailəşdirmək gücündə olan müstəqil media olmalıdır.

Dördüncüsü, mülkiyyət hüququ pozulan şəxsin ictimai müdafiəsini sonadək təşkil edən, prosesin gedişi ilə bağlı məsələləri müntəzəm ictimailəşdirən, zərurət yarandıqda günahkarlara qarşı ictimai kampaniyalar təşkil etmək gücünə (həmçinin bacarığına) sahib olan müstəqil vətəndaş cəmiyyətinə ehtiyac var.

Beşincisi, ölkədə şəffaf və çevik fəaliyyət göstərən fond bazarı, əmlak bazarı və sabit bank sektorunun varlığı həddən artıq önəmlidir. Kapital sahibi əmin olmalıdır ki, müxtəlif investisiya, pensiya, etimad fondları, eləcə də peşəkar broker institutları vasitəsilə istər maliyyə, istərsə də qeyri-maliyyə aktivlərinə (ən müxtəlif çeşiddə istiqrazlara, bondlara, borc kağızlarına, səhmlərə) çevik fəaliyyət göstərən fond bazarı vasitəsilə sərmayə qoymaq rahat olduğu kimi, zərurət yarandığı anda təkrar bazar vasitəsilə sərmayəsini geri çəkmək də problem olmayacaq.

Altıncısı, ölkədə kapital axınlarının liberallığını tənzimləyən mükəmməl qanunvericilik bazası olmalıdır. Kapitalın ölkəyə sərbəst giriş-çıxışı üçün hüquqi və qeyri-hüquqi maneələr, bürokratik prosedurlar aradan qaldırılmalıdır.

Yeddincisi, ölkədə dayanıqlı bank sektoru və mükəmməl çalışan sığorta mexanizmləri olmalıdır. Yığımlarını depozitə çevirən kapital sahibləri istənilən məbləğdə əmanətlərini istədikləri zaman geri çəkməkdə problemlə üzləşməməlidirlər.

Səkkizincisi, iqtisadiyyatın sabitliyinə təminat olmalıdır. Kapital sahibləri proqnozlaşdırılan bəlli bir dövr üçün məzənnə dəyişikliyi nəticəsində milli valyuta ilə əldə etdikləri aktivlərin dəyərsizləşməyəcəyinə, yüksək inflyasiya və böhran nəticəsində biznesin üzləşdiyi çağırışlarla bağlı sərmayələrini itirməyəcəklərinə, fors-major hallar xaricində iflasa uğramayacaqlarına arxayın olmalıdırlar.

Nəhayət, ölkədə demokratik seçki sistemi əsasında formalaşan siyasi hakimiyyətin mövcudluğu təmin edilməlidir. Hakimiyyət

bölgüsü və qarşılıqlı nəzarətə əsaslanan siyasi sistemin yoxluğu şəraitində kapital “isti pullar” qiyafəsində ölkəyə yüksək spekulyasiya arxasınca da gələ bilir, amma belə “ziyarət”in müddəti çox qısa olur (bəzən bir neçə ay).

Bu siyahını genişləndirmək də mümkündür, lakin minimum zəruri şərtlər kimi bu zəmanətlərin verildiyi mühitdə kapitalın özünü təhlükəsiz hiss etməsi üçün tam zəmin formalaşır. Əks halda kapital qaçır – məhz bu şərtlərin təmin olunduğu məkanda özünü və sahibini qorumağa…